DÜNYA XƏBƏRLƏRİ

# BMT Ukrayna müharibəsində azı min seksual zorakılıq faktını sənədləşdirib

Sentyabr 21, 2026




Əsir mübadiləsi

Rusiyanın Ukraynada genişmiqyaslı təcavüzkar müharibəyə başlamasından bəri mülki şəxslərə və hərbi əsirlərə qarşı azı 1004 seksual zorakılıq faktı qeydə alınıb. Bunu BMT-nin İnsan Hüquqları Ali Komissarlığı sentyabrın 18-də yayımladığı hesabatında bildirir. Real say bundan xeyli yuxarı ola bilər, çünki monitorinq qrupu yalnız Ukraynanın nəzarətindəki ərazilərdə araşdırma apara bilib və yalnız başlarına gələnləri danışmağa cəsarət edən zərərçəkənlərlə görüşüb.

Hesabatda seksual zorakılıq dedikdə zorlama, seksual xarakterli digər zorakı hərəkətlər, məcburi soyundurma, cinsiyyət orqanlarına xəsarət yetirilməsi və işgəncə verilməsi,

həmçinin zorlama cəhdləri ilə hədə-qorxular nəzərdə tutulur.

**Sənədləşdirilmiş halların 89 faizində seksual zorakılığı Rusiya hərbçiləri və güc strukturları – Federal Təhlükəsizlik Xidməti (FSB) və Federal Penitensiar Xidmətin əməkdaşları törədiblər. Qalan 11 faiz hallar üçün isə Ukrayna hərbçiləri, Ukrayna Təhlükəsizlik Xidməti (SBU) və penitensiar sistemin əməkdaşları məsuliyyət daşıyıblar.**

Zorakılığın qurbanları arasında həm mülki şəxslər, həm də hərbi əsirlər olub.

Monitorinq qrupu həm Ukraynada saxlanılan rusiyalı hərbi əsirlərlə, həm də əsirlikdən qayıtmış keçmiş ukraynalı hərbi əsirlərlə müsahibələr aparıb. Rusiya hakimiyyəti isə BMT nümayəndələrinin işğal altındakı ərazilərə girişinə icazə verməyib.

Zorakılıq qurbanlarının dörddə üçü kişilərdir. Onların əksəriyyəti əsirlikdə və ya məcburi saxlanma yerlərində zorakılığa məruz qalıb. Əsirlikdə və ya həbsxanada olmayan qurbanlar arasında isə qadın və qızlar çoxluq təşkil edir. Ən yaşlı qurbanın 82 yaşı olub, ən kiçiyi isə dörd yaşlı qızdır. Üç qadın zorlama nəticəsində uşaq dünyaya gətirib.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur